**Məleykə HÜSEYNOVA**
AMK-nın professoru, filologiya elmləri doktoru
Ünvan: Bakı, Yasamal rayonu, Ə.Ələkbərov 7
Email: meleyke960@gmail.com

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA BABƏK TARİXİ ŞƏXSİYYƏT KİMİ

***Xülasə:*** *Məqalədə Azərbaycan ədəbiyyatında Babək obrazını yaradan ədiblərin bu obraza özünəməxsus lirik-psixoloji yanaşması əks olunub. Bir sıra əsərlərdə Babəkin psixoloji portreti, keçdiyi mübarizə yolu təhlil olunub.*
***Açar sözlər:*** *Babək, Xəlifə Mömin, xürrəmilər*

Azərbaycan ədəbiyyatında Babək hərəkatına həsr olunmuş bədii əsərlər az deyil. İlk növbədə görkəmli yazıçı və dramaturq C.Cabbarlının adını, onun "Od gəlini" tarixi pyesini qeyd etmək lazımdır. C.Cabbarlı irsinin tanınmış tədqiqatçılarından ədəbiyyatşünas alim F.Vəzirova pyesin müasirliyi haqqında yazırdı: "C.Cabbarlı üçün tarixi mövzu yeni fikirlərin, yeni duyğuların təbliği üçün bir vasitə olmuşdur. Əsərdə ("Od gəlini" nəzərdə tutulur.: M.H.) müasir ideyalar, xalqı düşündürən bir sıra mühüm ictimai-siyasi məsələlər öz bədii ifadəsini tapmışdır" [10, s. 51]. Mənzum pyeslər üçün lirizm nə qədər təbii və vacibdirsə, C.Cabbarlının bu pyesində lirizm ilk növbədə sənətkarın mövzuya və problemə münasibətinə uyğundur. Görkəmli dramaturq tarixi həqiqətlərin emosional ifadəsinə üstünlük vermiş, oxucunun hiss-duyğularına təsir göstərməyə çalışmışdır.

Məhz, zərurət digər şair və yazıçıları bu aktual mövzuya müraciət etməyə vadar etmişdir. C.Cabbarlıdan sonra eyni məqsədlə Babək mövzusuna müraciət edənlərdən biri də şair O.Saravəlli olmuşdur. "Babək" mənzum pyesi ideyasına görə aktuallığını qoruyub saxlasa da, tədqiqatçılar bu əsərdə qüsur, iradlar olduğunu da göstərmişdilər. Babək hərəkatının geniş xalq kütləsinə dolğunluqla və poetik formada çatdırılmasında B.Vahabzadənin "Dar ağacı", İ.Selvinskinin "Babək" pyesi mühüm rol oynamışdır. Bu əsərlərdə ilk növbədə lirizm növ və janra xas xarakterik formada təzahürünü tapıbdır.

Azərbaycanın görkəmli sərkərdəsi, böyük əzəmətli xalq üsyanının rəhbəri Babəkin həyatı, fəaliyyəti, amalı Cəlal Bərgüşadın "Sıyrılmış qılınc" romanında geniş planda təsvir olunmuşdur. Qeyd etmək lazımdır ki, yazıçının bu əsəri Babək mövzusunda yazılmış və kitab şəklində çap olunmuş ilk romandır [1]. Tarixi faktlara bu və ya digər dərəcədə əməl edən müəllif bədii təxəyyülün imkanlarından istifadə hesabına milli ideyalara uyğun gələn Babək obrazını yaratmışdır. Akademik Z.Bünyadovun [3], S.Nəfisinin [7], M.Tomaranın [9] əsərlərinə istinad edən C.Bərgüşad orijinal bir əsər yazmışdır. Roman Azərbaycan tənqidində geniş reaksiya doğurmuş, əsərin məziy-

yətləri ilə yanaşı qüsur və nöqsanları da ətraflı qeyd olunmuşdur. Roman ictimai-siyasi, tarixi faktlara riayət baxımından dolğun təhlil edilmişdir. Əsərdə əsas məqsəd romanın ifadə planındakı lirizmdir. C.Bərgüşadın "Sıyrılmış qılınc" romanında hadisəçiliyə geniş yer verilmiş, epik təsvir hadisə və obrazların mənəvi dünyasının psixoloji təhlil hesabına açılmasını üstələmişdir. Romanda təsvirçilik üstünlük təşkil edir. Bu mənada yazıçı romanda Ruhiyyənin, gözəllərin bəzənməsində, Bağdaddakı xəlifə sarayının təsvirində ifrata varmış, süjet xəttinin inkişafı ilə birbaşa və əsaslı şəkildə bağlı olmamışdır. Tarixi məişət reallığı kimi, obrazların da mənəvi dünyası, danışıq dili, əqidə və inamı müasirləşdirilib. Bütün bunlar romanda lirizmin özünəməxsus təzahüründə də özünü bariz göstərir. Yazıçı lirizmdən kolorit kimi istifadə etmişdir. Başqa sözlə desək, C.Bərgüşadın romanında lirizm nə əsərin məntiqindən doğur, nə də romanın poetik sistemində ayrılmaz tərkib hissəsidir. Lirizm yazıçının dünyagörüşünün ifadəsidir. Yazıçı əsəri şərti olaraq desək, iki yerə ayırmışdır: bir tərəfdə istismar olunanlar, işğala məruz qalanlar, üsyançılar, digər tərəfdə istismar edənlər, işğalçılar, üsyançılar mübarizə apardıqları, daha doğrusu düşmənlər. Birinci tərəfin təsvirində yazıçının mövqeyi, rəğbəti aydın hiss olunur. İkinci tərəfin təsvirində isə ədib bir çox hallarda antipatiyasını gizlətməmiş, ən yaxşı halda loyallığını qoruyub saxlamışdır. Birinci tərəfin təsvirində lirizmin təzahürü emosional və məqsədlidir. Xəlifə deyir: "Mənim mələyim, həyat nəşədir. Həyatda nəşədən qiymətli bir sərvət tanımıram" [4, s. 22-23]. Göründüyü kimi bu lirik ovqatdan yazıçı xüsusi rəğbət bəslədiyi Babəkin əleyhdarlarını mənfi planda təsvir etmək (yəni, gecə-gündüz eyş-işrətlə məşğuldur və s.) üçün istifadə etmişdir.

Ə.Məmmədxanlının "Babək" romanında isə lirizmdən orijinal şəkildə istifadə olunub. Məlum olduğu kimi, yazıçı bir roman üzərində uzun müddət yaradıcılıq işi aparmış, təəssüflər olsun ki, sağlığında əsəri başa çatdırmamışdır. Ədib dünyasını dəyişəndən sonra onun, "Babək" romanını xalq yazıçısı Anar çapa hazırlamış, ilk dəfə "Azərbaycan jurnalında", daha sonra isə ayrıca kitab şəkilində çap etdirmişdir [5]. Yazıçı əsər üzərində 20 il işləmişdir. Anar romana ön söz yazmışdır [2]. Romanı yazıb başa çatdırdığı illər ərzində Ə.Məmmədxanlı bu mövzuda "Babək" filminin ssenarisini (1977), "Xürrəmilərin ağ şahini" pyesini (1975) yazmışdır.

Anar haqlı olaraq yazır ki, "əsərin hər iki hissəsini (həm roman, həm də pyesi.: M.H.)" ümumi vəhdətdə birləşdirən böyük bir ideal, müqəddəs bir amal - "Azadlıq ideyası" və ya Ə.Məmmədxanlının özünün çox sevdiyi ifadəni işlətsək "Azadlıq yanğısı" bu və ya digər dərəcədə hamını sıxan mənəvi əsarət dövründə Ə.Məmmədxanlı bu əsəri "azadlıq eşqinə və azadlıq eşqi ilə yaratmışdır" [2]. Bu amal, bu ideya romanın ana xəttini təşkil edir. Amma romanda azadlıq ideyasını ancaq və ancaq millətin əsarətdən, işğaldan azad olması kimi başa düşmək düzgün deyil. Ə.Məmmədxanlının Babəkə həsr edilmiş hər üç əsərində ("Babək", "Xürrəmilərin ağ şahini", "Od içində") millətin, xalqın azadlığı şəxsiyyətin mənəvi, dini azadlığı ilə birlikdə, vəhdətdə götürülmüşdür.

"Uzaq gələcəyin məhkəməsində ortada olan sənədlərin içərisində Ənvər Məmmədxanlının əsərləri də olacaq və bunların içində deyilənlərə belə baxmayaraq "Babək" romanı mühüm yer tutacaq" [8]. Roman çoxplanlı, çoxqatlı, çoxşaxəli bir əsər kimi düşünülmüşdür. Geniş epik lövhələr, panoramlı təsvirlər, zəngin xarakterlər, mürəkkəb hadisələr, süjet xəttinin çoxşaxəli inkişafı əsərin məhz epopeya kimi nəzərdə tutulduğunu əks etdirir.

Romanda yazıçı konkret hadisəni, obrazı və ya obrazın taleyinin bir parçasını lirik planda ifadə etmişdir. Yazıçı lirizmi hadisəyə görə seçmir. O, obrazları özünəməxsus formada mənalandırmışdır. Faciəvi taleli Babək surətinin təsvirində yazıçı epik vüsətli əsərlərə xas lirizmdən istifadə etdiyi üçün Babək fiziki gücünün, ideallarının möhtəşəmliyi ilə deyil, ilk növbədə mənəviyyatının, insani keyfiyyətlərinin qeyri-adiliyi ilə diqqəti cəlb edir.

İnsanın mənəvi dünyasının, hiss və duyğularının, iç dünyasındakı sevinc və iztirablarının təsvirinə meyl göstərən yazıçının əsərində insan obrazları emosionallığı, həzinliyi, kövrəkliyi ilə yadda qalır. Yazıçı bəzən bu xüsusiyyətləri məqsədli şəkildə elə qabardır ki, hətta obrazların qəhrəmanlıq səviyyəsinə çatan fədakarlığı, cəfakeşliyi adi hal kimi diqqəti cəlb edir. Yazıçı insanın böyüklüyünü məhz onun mənəviyyatının təmizliyi, insan (ata-ana, bacı-qardaş və s. kimi) kimi missiyasını yerinə yetirməyə qadir olub-olmaması ilə müəyyənləşdirir. Bu baxımdan deyə bilərik ki, Ə.Məmmədxanlının yaradıcılığında zahiri amilləri ilə fərqlənən xarakterlərin əvəzinə məhz mənəvi-əxlaqi saflığı, bütövlüyü ilə seçilən xarakterlər yaradılmışdır. Bu isə ilk növbədə yazıçı kimi onun ədəbi mövqeyi və buna uyğun olaraq lirik nəşrin imkanlarından maksimum şəkildə istifadə etmək bacarığı ilə bağlıdır.

Romanda hadisələr əslində iki əsas obrazın məhvərində dövr edir. Bunlardan biri Xəlifə, digəri isə Babəkdir. Bu iki obraz özünü, seçdiyi həyat yolunu, müəyyənləşdirdiyi əqidəni haqlı sayır. Romanda real tarixi şəxsiyyətlərin həyatı maksimum dəqiqliklə əks olunub. Lakin oxşar digər bədii əsərlərdən fərqli olaraq, Ə.Məmmədxanlı tarixi həqiqətlərin və şəxsiyyətlərin ömür yolunun təsvirində orijinal yol seçmişdir. Obrazların mənəvi dünyasının təsviri ön plana çəkilib. Bu obrazların nə etməsindən daha çox, nə fikirləşməsi qabarıq işıqlandırılmışdır.

Xəlifə və Babək ənənəvi müsbət-mənfi qəhrəman standartlarından kənara çıxan obrazlardır. Xəlifə hökmdardır. O, istər-istəməz hökmranlıq kodeksinə, funksiyalarına, tələb və etiketlərinə əməl etməlidir. Əks təqdirdə hökmranlığı uzun sürə bilməz. Hökmdarlığını qoruyub saxlamaq üçün Xəlifənin yeganə vasitəsi gücüdür. Deməli, Xəlifə Məmun gücü təmsil edir, gücün simvoludur. Xəlifə Məmun əməlləri ilə klassik hökmdar tipidirsə, düşüncə, mənəviyyat, əqidəsinə görə müəyyən mənada fərqlidir. Onun məqsədi hakimiyyətini qoruyub saxlamaqla yanaşı ölkə, dövlət və xalq üçün müəyyən işlər görməkdir. O, səltənətini işğal etdiyi əraziləri bir bayraq altında birləşdirmək, bir ideologiya və din təsirində saxlamağa çalışır. Məmun despotdur. Lakin küt, nadan, cahil, savadsız despot deyil. Ağıllı hökmdar kimi yaxşı başa düşür ki, imperiyasını və varlığını qorumaq üçün tabeliyində olanları başqa fikrə düşmələrinə, başqa etiqadlarına inam bəsləmələrinə yol verməməlidir. Deməli son nəticədə Xəlifə

üçün insan məqsəd deyil, məqsədi gercəkləşdirməyə vasitədir. O, filosof despotudur, savadlı şəxsdir. Bilik, elm, savad onun əlində yaşamaq, hökmranlıq etmək, imperiyanı qoruyub saxlamaq vasitəsidir.

Digər başlıca obraz Babəkdir. Romanda Babək adi bir insandır. Xürrəmilərin adi, sıravi üzvlərindəndir. Uşaqlıq yaşlarından əzab, zülm görən Babəkin xarakteri yaşadığı ömrə uyğun formalaşır. O, həm səbrli, həm də dözümsüzdür, həm müdrikdir, həm də hərəkatda prinsipial tərəfdardır. Babək Xəlifənin ona görə düşmənidir ki, o Xürrəmidir, başqa sözlə fərqli düşünən, həyat arzulayan bir kafirdir.

Xəlifə Məmun xristian və müsəlman dinlərindən məqsədəuyğun istifadə edir. Xürrəmilər isə İslam və xristianlığı inkar edirlər. Onlar ulu tanrıya deyil, ulu Şirvinin ruhuna inanırlar. Xürrəmilərin etiqadı haqqında Qaraca Dədənin sözləri aydın təsəvvür yaradır: “Nə qəm ki, bir tikə əppək, bir kuzə şərab var süfrəmizdə, əvəzində etiqadımız budur ki, insan üçün bu dünyadan qeyri bir dünya yoxdur və ... bütün insanlar üçün elə vacib din arzu edirik ki, o dinin bayrağı göydə günəşdir. Və o dinin ədaləti ilə bu dünyanın bütün nemətləri bütün insanlar arasında gərək tən bölünsün!” [5, s. 52].

Babək həmfikirləri kimi qadağalara, yasaqlara qarşı çıxmaqla yalnız Xəlifənin və xilafətin barışmaz düşməninə çevrilmir, eyni zamanda insanların sahib olduqları etiqadları itirmək istəməyən din xadimlərinin kinini, nifrətini qazanır. Bununla da Babək əməli qələbə gözlənilməyən mübarizəyə başlayır. Xilafətə və cəmiyyətə qarşı mübarizədə Babək yeganə gücü xalqı öz tərəfinə çəkməkdə görür. Xəlifə Məmun üçün mübarizədə insan vasitədir, Babək üçün isə insan məqsəddir. Babək ilk növbədə insanın mənən xoşbəxt yaşamaq haqqı uğrunda mübarizəyə başlayır.

Dini-mənəvi azadlıq və müstəqillik kimi müqəddəs amal əks tərəfin gücü qarşısında acizdir. Babək bildiyimiz kimi, elmi-fəlsəfi dini fikirlərin fövqünə yüksələn müdrik bir şəxsiyyətdir. O, məğlubiyyətə uğrayacağını görür və bilir, lakin mübarizədən çəkinmir. Xəlifə Babəkə deyir: “Ey Allahın bəlası, sən bir iş gördün ki, bu vaxta qədər heç kəs o işi görə bilməmişdir” [6, s. 259]. Babək özü də gördüyü işin qeyri-adiliyini çox gözəl başa düşür və bu böyük şəxsiyyət özünün tarixi missiyasını məhz insanların fikrini, düşüncəsini hərəkətə gətirməklə, özlərinə müəyyən bir iş görə biləcəklərinə inam yaratmaqda görür. Babək ölüm qabağı Xəlifəyə deyir: “Ey kor yapalaq, sən də bütün müstəbidlər kimi səhv edirsən, çünki mənim dastanım elə bir dastandır ki, nə Babəklə başlamışdır, nə də Babəklə qurtaracaq. Ey yazıqlar, siz heç vaxt dərk etməyəcəksiniz ki, azadlıq yanğısı nə deməkdir. O dəhşətli yanğı ki, ürəyi yandırıb külə döndərir. Azadlıq - istər o şirin olsun, istər acı - yalnız o idi mənim səcdəgahım! Və bu müstəbid ki, məni öldürür, o da heç vaxt anlamayacaq ki, ölümü ilə azadlıq fədaisi büsbütün məhv olmur!” [2]. Bu lirik emosional və fəlsəfi fikirdən də aydın görünür ki, Babəkin böyüklüyü məhz özündən əvvəlki fədakarlıq ənənəsini davam etdirməkdə və özündən sonra babəkçilik üçün ölməz ənənə yaratmaqdadır.

Ə.Məmmədxanlı romanı bütövlükdə ideyaya, əqidəyə sadiq şəxsiyyətlərin (Babək kimi Xəlifə Məmun da belə şəxsiyyətdir) mənəvi dünyasının zənginliyi xarakterlərin rəngarəngliyi, müxtəlifliyi üzərində qurmuşdur. Məhz, bu cəhət bu romanı

eyni mövzuda yazılmış digər əsərlərdən fərqləndirmişdir. Bu fərqlərdən ən əsası lirizmdir ki, romanda özünü qabarıq şəkildə göstərir. Digər tərəfdən əsərdəki lirizm yazıçının hekayələrindəki lirizmdən məhz janrın (yəni romanın) bədii-estetik prinsiplərinə riayət olunması ilə seçilir. Məsələn, yazıçı "Karvan dayandı" hekayəsində lirizmi hekayənin bütün strukturunda qabarıq nəzərə çarpdırmışdır. Ədib təsvir prosesində də, danışıq vaxtında (yəni təhkiyə prosesində) obrazların özlərini təqdimində də lirik tonu və çaları qoruyub saxlamışdır.

Romanda isə vəziyyət tamam başqa cürdür. Adi bir fakta diqqət yetirək. Yuxarıda dediklərimizdən aydın görünür ki, Ə.Məmmədxanlı Babəklə Xəlifə Məmunu eyni səviyyəli rəqiblər kimi qarşılaşdırmışdır. Əsərdə Babək nə qədər emosionaldırsa, xəlifə bir o qədər təmkinli və soyuqqanlıdır. Hər ikisi əqidə insanlarıdır. Xəlifə əqidəsini qorxu hissiylə xof yaratmaqla qəbul etdirir. Babək isə cəmiyyətdəki statusuna uyğun olaraq, təbliğat və inandırmaqla insanları öz ideallarına ortaq çıxmağa ruhlandırır. Yazıçı məhz lirizmi bu cəhətlərin təsvirinə uyğunlaşdırmışdır.

Romanda Xəlifə şahmat həvəskarıdır. Babək isə şahmat oynamır. Bu təsadüfi detal deyil. Yazıçı bu detaldan məqsədli şəkildə istifadə etmişdir. Xəlifənin şahmatı siyasət aləmində hakimiyyət uğrundakı amansız mübarizədə vəziyyətin simvoludur. Onun mənəvi aləmindəki zənginlik və müxtəliflik, xarakterindəki qeyri-adilik yazıçının öz lirizmini, onun ictimai statusuna uyğunlaşdırmağa məcbur edibdir. Xəlifənin xarakterik cəhətlərindən biri də qəddarlığını qaba, kobud formada həyata keçirməsidir. Dövlət möhürü əlində olan yaxın dostu Cəfər Bərməklə ünsiyyəti buna örnəkdir. Kef məclisində "əmr ilə könül şad olmur", "... biri gözləyən fəlakətdən, qəlbimiz, ürəyimiz ağlımızdan tez xəbər tutur" - deyir, üzü heç gülmür. Cəfəri məhz harınlığına görə ölümə məhkum edir [5, s. 23]. Yazıçı lirik ovqatın fonunda tragizmi qabarıq ifadə edir. Bu isə adi təsadüf deyil, bu, sənətkarlıq məharətidir.

Babək isə idealına sadiq şəxsiyyətdir. Xəlifə insanı itaətdə saxlamağa çalışdığı halda, Babək insanın xoşbəxtliyi uğrunda mübarizə aparır. Xəlifə dini inama cəmiyyətə və cəmiyyətin aldanmış üzvlərinə etibar etdiyi halda, Babək ən çox özünə arxalanır. O, yəni Babək həm ərəb xilafətinə, həm islam dininin fanatiklərinə, həm də müsəlmançılığa kor-koranə pərəstiş edənlərə qarşı mübarizə aparır. Təbii ki, bütün bunlar yalnız Babəkin taleyinə deyil, eyni zamanda xarakterinə də təsir edir. Əsərin əvvəlində Babək düşünən, fikirləşən, daha doğrusu, formalaşma prosesi keçirən obraz kimi əks olunur. Babək hələ sıravi xürrəmidir. Süjet xətti inkişaf etdikcə, o, xürrəmilərin başçısı, xilafəti vəlvələyə salan istedadlı, mərd sərkərdədir. O, artıq yalnız özü üçün yaşamır. Görünən işləri, sözləri, əqidəsi, amalı, əməlləri başçılıq etdiyi hərəkatın üzvlərinə nümunədir.

Lirik, emosional ovqat ilə Babəkin xarakterik cəhətlərini mənalandırmaq Ə.Məmmədxanlının yaradıcılıq axtarışlarının öznəməxsusluğudur. Babək ideoloq deyil. O, qiyamçıdır. Anasının tapdanmış namusunun qisasını almaq, xalqın acınacaqlı, səfalət içində həyat sürməsinin səbəbkarlarını məhşər ayağına çəkmək, vətən torpağını tapdaq altından çıxarmaq uğrunda qiyam istəyir. O, əməli işə inanır, bu inamı gerçəkləşdirməyə

qadir bütün vasitələri qəbul edir. Babək azadlıq uğrunda mübarizənin zəruriliyi əqidəsinə sadiqdir. Bu sədaqət onun xarakterinə möhtəşəmlik vermişdir.

**ƏDƏBİYYAT:**


1. Axundov J. Tarix və roman. B.: Yazıçı, 1988, 190 s.
2. Anar. Ənvər Məmmədxanlının Babək dastanı. / Ə.Məmmədxanlı. Babək. B.: Azərnəşr 1994, s. 230-264
3. Буниядов З. Азербайджан в VII-IX века. Б.: Элм, 1989, 336 с.
4. Bərgüşad C. Sıyrılmış qılınc. B.: Gənclik, 1981, 373 s.
5. Məmmədxanlı Ə. Babək. B.: Azərnəşr, 1994, 264 s.
6. M.Hüseyn. Əsərləri X cild. B.: Yazıçı 1979, 268 s.
7. Nəfisi S. Azərbaycan qəhrəmanı Babək Xürrəmdin. Azərbaycan SSREA nəşriyyatı 1960, 260 s.
8. Nərimanoğlu Kamil Vəli. Kitablardan görünən Ənvər Məmmədxanlı. // “Azərbaycan” jurnalı, 1999, № 2, 144 s.
9. Томара М. Бабек М.: Журнально газетное объединение, 1936, 71 s.
10. Vəzirov F.C. Cabbarlı yaradıcılığında sosializm realizmi. B.: 1960, 111 s.



**Малейка ГУСЕЙНОВА**

Профессор АНК, доктор филологических наук


**БАБЕК КАК ИСТОРИЧЕСКАЯ ФИГУРА В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ**


***Резюме:*** *В статье отражен своеобразный лирико-психологический подход к созданию образа Бабека в азербайджанской литературе. Был проанализирован психологический портрет Бабека и пройденный им путь борьбы в некоторых произведениях.*



***Ключевые слова:*** *Бабек, Халифа Момин, лирико-психологической подход, хуррамиты*



***Maleyka HUSEYNOVA***

*Professor of ANC, Doctor of Philology*


***BABEK AS A HISTORICAL PERSON IN AZERBAIJANE LITERATURE***


***Summary:*** *The article reflects the peculiar lyrical-psychological approach and analysis of the writers who created the image of Babek in Azerbaijani literature. Babek's psychological portrait and way of his struggle were analyzed.*



***Keywords****: Babek, Halifa Momun, lyrical-psychological approach*

**Rəyçilər:** filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı;
filologiya elmləri doktoru, professor Tərlan Quliyev